# Azərbaycanın qlobal layihələrdə iştirakı ölkəmizin beynəlxalq nüfuzunun göstəricisidir

***Prezident İlham Əliyev Azərbaycanın hər zaman xarici ölkələrlə səmərəli əməkdaşlığa üstünlük verdiyinin və bunun müsbət nəticələrlə müşahidə edildiyinin mühüm önəm daşıdığını diqqətə çatdırıb, həmçinin respublikamızın müxtəlif vaxtlarda yaxın-uzaq ölkələrə imkan daxilində kömək göstərdiyinin yüksək dəyərləndirildiyini də xatırladıb. Dövlətimizin başçısı bu barədə deyib: "Bizim bir neçə önəmli transmilli layihəmiz məhz bu prinsip əsasında qurulub və uğur da məhz bu əsasda qazanılıb. Azərbaycan xarici siyasətdə qarşılıqlı dəstəyi sözdə yox, əməldə, həmrəylikdə nümayiş etdirib".***

**(ardı 3-cü səhifədə)**

# Azərbaycanın qlobal layihələrdə iştirakı ölkəmizin beynəlxalq nüfuzunun göstəricisidir

*(əvvəli 1-ci səhifədə)*

Azərbaycan ötən il 2030-cu ilədək bir dövrü əhatə edəcək keyfiyyətcə yeni strateji mərhələyə daxil olub. Bu zaman ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə iqtisadi strategiyanın həyata keçirilməsi, dərin islahatların davamlılığının təmin olunması, ölkənin iqtisadi qüdrətinin daha da artırılması, müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinin inkişafı və bütün bunlarla yanaşı, Qarabağ və Şərqi Zəngəzuru dünyada sabitlik, tərəqqi məkanına çevirilməsi kimi məsələlərin həlli nəzərdə tutulub. Lakin burada onu da vurğulayaq ki, indiyədək də bu istiqamətlərdə genişmiqyaslı tədbirlər reallaşdırılıb, islahatlar gerçəkləşdirilib, nəticədə parlaq uğurlar qazanılıb. Amma Ermənistanın 30 il ərzində torpaqlarımızı işğal altında saxlanması ölkəmizin ümumi iqtisadi inkişafına müəyyən problemlər yaradıb. Məsələn, Naxçıvan Muxtar Respublikasının Azərbaycanla magistral və dəmir yolları bağlantısı kəsildiyindən bu qədim əzəli-əbədi yurdumuzun sürətlə müasirləşməsində çətinliklər nəzərə çarpıb.

Azərbaycanın uğurlu balanslı xarici siyasəti, region və eləcə də dünya dövlətləri ilə bərabərhüquqlu və qarşılıqlı maraqlara söykənən əməkdaşlıq münasibətləri ölkəmizin nüfuzunu getdikcə artırır. Respublikamızın Cənubi Qafqazın lider dövləti olmaqla bərabər, regionda sülhyaratma və təhlükəsizliyin təmin olunmasına atdığı addımlar və irəli sürdüyü təşəbbüslər həm bölgənin, həm də bütövlükdə dünyanın təhlükəsizliyinə müsbət təsir göstərir. Bu, beynəlxalq ictimaiyyət tərəfindən də yüksək dəyərləndirilir.

Bu gün əksər regional və bir sıra beynəlxalq layihələr Azərbaycanın iştirakı ilə gerçəkləşdirilir. Bu baxımdan, ölkəmizin Avropanın enerji təhlükəsizliyində oynadığı mühüm rol xüsusilə diqqət çəkir. Bunun başlıca səbəbi isə vurğulandığı kimi, düşünülmüş uğurlu balanslı xarici siyasət, dünya dövlətləri ilə bərabərhüquqlu və qarşılıqlı maraqlara söykənən əməkdaşlıq münasibətləri, həmçinin respublikamızda yaradılan əlverişli iqtisadi şəraitdir.

Prezident İlham Əliyev martın 15-də Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimində respublikamızın xarici investisiya üçün çox cəlbedici açıq ölkə olduğunu, burada əlverişli investisiya iqlimi yaradıldığını və eyni zamanda, xarici tərəfdaşlar qarşısında üzərinə düşən bütün öhdəliklərin yüksək səviyyədə yerinə yetirildiyini bildirib. Dövlətimizin başçısı xarici sərmayənin Azərbaycanda böyük həcmdə qeyri-neft sektoruna qoyulmasının əsas prioritetlərdən biri olduğunu diqqətə çatdırıb: "Çünki uzun illər neft-qaz sahəsinə




10 milyardlarla dollar sərmayə qoyulubdur. Bu, bizə imkan verdi ki, enerji sahəsində istədiyimizə nail olaq. Bu gün Azərbaycan həm xam neft, təbii qaz, neft məhsulları və elektrik enerjisini ixrac edən ölkədir. Bizdə elektrik enerjisinin ixracı nöqteyi-nəzərdən böyük potensial var. Biz dörd qonşu ölkəyə ixracı artıq təmin etmişik və əminəm ki, gələcəkdə digər bazarlara da elektrik enerjisi ilə çıxacağıq. Bunu nəzərə alaraq, hər bir yeni stansiyanın inşa olunması qeyd etdiyim kimi, bizim ixrac imkanlarımızı da artırır".

Ölkə rəhbəri çıxışında Azərbaycanda aparılan islahatların, sənayeləşmə siyasətinin, biznes mühitinin yaxşılaşdırılması və xarici investisiyanın cəlb edilməsi istiqamətində təqdirəlayiq addımlar atıldığını, xarici dövlət borcunun çox aşağı səviyyədə olduğunu, həm beynəlxalq maliyyə qurumları, həm də böyük şirkətlər, investorlar tərəfindən Azərbaycana xüsusi maraqla yanaşıldığını xatırladıb.

Azərbaycanın beynəlxalq layihələrdə fəal iştirakından danışarkən, bir məqamı da xüsusilə qeyd etmək lazımdır. Bu, Cənub Qaz Dəhlizinin uğurla reallaşdırılması ilə bağlıdır. Dövlətimizin başçısı İlham Əliyev martın 10-da Ankarada Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşündə də bildirilib ki, hazırda iki qardaş ölkə arasında enerji sahəsində əməkdaşlıq, eləcə də, bu xüsusda, Cənub Qaz Dəhlizinin fəaliyyəti uğurla gerçəkləşir, bu dəhliz vasitəsilə hazırda Avropaya qaz təchizatının artırılması imkanları müzakirə edilir.

Xatırladaq ki, Cənub Qaz Dəhlizi çox sayda müxtəlif maraqlı tərəfləri özündə əhatə edən mürəkkəb bir layihədir. Dəhlizinin seqmentləri "Şahdəniz-2", Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi, TANAP və TAP layihələrindən ibarətdir. Bu layihə dünyada inkişaf etdirilən ən kompleks təbii qaz boru kəmərləri zənciri kimi qiymətləndirilir. Avropa İttifaqı üçün prioritet enerji layihələrindən biri olan Cənub Qaz Dəhlizi Xəzər regionundakı müəyyən qaz ehtiyatını Avropa bazarına daşımaqla dünyanın enerji xəritəsini dəyişir.

Prezident İlham Əliyev Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin VIII toplantısındakı çıxışında deyib: "Milli səviyyədə koordinasiya bizə bu nəhəng layihəni – XXI əsrin ən böyük layihələrindən biri olan Cənub Qaz Dəhlizini icra etməyə kömək etdi. Onun dəyəri 33 milyard ABŞ dollarıdır. Eyni zamanda, əlbəttə ki, biz enerji şirkətlərinin, tikinti şirkətlərinin, investorların fəal iştirakı olmadan uğur qazana bilməzdik. Bu gün onlar buradadırlar. Əlbəttə, onların, eləcə də beynəlxalq maliyyə institutlarının töhfəsi çox dəyərli idi. Cənub Qaz Dəhlizi layihəsi həm də müasir tarixdə çox azsaylı layihələrdən biridir ki, onun icrasına bütün aparıcı beynəlxalq maliyyə institutları öz töhfəsini vermişdir- Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, Asiya İnfrastruktur və İnvestisiya Bankı. Beləliklə, aparıcı beynəlxalq maliyyə institutları bu layihənin icrası üçün kredit və maliyyə vəsaiti ayırdı. İndi biz bütün nöqteyi-nəzərdən mürəkkəb olan bu layihənin yüksək səmərəliliklə tamamlanmasına görə həqiqətən də fərəhlənə bilərik".

Azərbaycanın son dövrlərdə region dövlətləri arasında İranla önəmli layihələrin gerçəkləşdirilməsi xüsusi diqqət çəkir. Prezident İlham Əliyevin martın 11-də qonşu ölkənin yol və şəhərsalma naziri Rüstəm Qasiminin başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən bu barədə ətraflı danışılıb. Görüş zamanı bölgədə yaranmış yeni reallıqların əməkdaşlıq üçün yaxşı imkanlar yaratdığı qeyd edilib. Söhbət zamanı xüsusilə nəqliyyat sahəsində İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması layihəsi yüksək dostluq əlaqələrinin təzahürü kimi dəyərləndirilib və bu bağlantının yeni nəqliyyat yollarının açılmasına xidmət edəcəyinə əminlik ifadə olunub. Eyni zamanda, yeni dəhlizin həm nəqliyyat, həm də elektrik enerjisi üçün önəmli bir beynəlxalq kommunikasiya qovşağı olacağı da diqqətə çatdırılıb.

Yeri gəlmişkən, bu gün Şimal-Cənub Nəqliyyat Dəhlizinin bir qolu olacaq həmin yeni nəqliyyat yolunun işə salınması istiqamətində çox mühüm addımlar atılır və bu, həm Şərq-Qərb, həm də Şimal-Cənub istiqamətlərində əməkdaşlıq üçün gözəl zəmin yaradacağını şərtləndirir.

Beləliklə, hazırda Azərbaycanın İranla müxtəlif sahələri əhatə edən sıx əlaqələri var. Bu dövlətlə nəqliyyat-tranzit, ticarət, sənaye sahələrində əməkdaşlıq respublikamız üçün prioritet siyasi xətdir. Prezident İlham Əliyevin qlobal xarakter daşıyan siyasi və iqtisadi məsələlərə diqqətlə yanaşmasının nəticəsidir ki, ölkəmiz indi bir tərəfdən Çinin təklif etdiyi "Bir kəmər, bir yol" layihəsinə qoşulmaqla Asiya ilə Avropa arasındakı iqtisadi əlaqələrdə dayaq məntəqəsinə, digər tərəfdən, İranın da iştirak etdiyi Şimal-Cənub nəqliyyat dəhlizi layihəsinə qoşularaq logistika mərkəzinə çevrilir.

"Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi"ndə Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri vasitəsilə ölkəmizin rəqabətqabiliyyətliliyinin təmin edilməsi qarşıya mühüm vəzifə kimi qoyulub. Son illərdə bu məsələ nəqliyyat və iqtisadi əhəmiyyəti ilə bərabər, geosiyasi rolu baxımından da xüsusi diqqət çəkib. Ona görə də Azərbaycanın həm nəqliyyat dəhlizlərinin kəsişdiyi coğrafi məkan, həm də ciddi rəqabət qabiliyyətinə malik dövlət olaraq bu prosesdə iştirak etməsi, ölkəmizi regionun geosiyasi, iqtisadi, kommunikasiya və logistika mərkəzi kimi tanıdıb.

Bu məqamda, onu da xatırladaq ki, artıq Azərbaycan 1 ildən çoxdur ki, kommunikasiyaların açılması ilə bağlı Ermənistana verdiyi təkliflərə cavab gözləyir. Lakin Baş nazir Nikol Paşinyan Zəngəzur dəhlizindən siyasi maraqları üçün istifadə edir, müxtəlif bəhanələr gətirməklə layihənin reallaşmasına mane olur. Zəngəzur dəhlizinin açılması prosesinə əngəl olmağa çalışan rəsmi İrəvan artıq seçim qarşısındadır: ya Azərbaycanın şərtləri ilə razılaşmalı, ya da regional layihələrdən kənarda qalacağı reallığı qəbul etməlidir.

Vətən müharibəsində qazandığı möhtəşəm qələbədən sonra Avropa İttifaqının, o cümlədən, Avropanın böyük dövlətlərinin, İtaliya, Böyük Britaniya və bir çox digər ölkələrin ölkəmizə marağı daha da artıb. Hazırda bu quruma sədrlik edən Fransanın Prezidenti Emmanuel Makron regionda cərəyan edən məsələlərlə bağlı dövlətimizin başçısı İlham Əliyevə zəng edib, ardınca məktub göndərib. Avropanın əsas dövlətlərindən olan İtaliyanın hökumət rəhbəri telefon əlaqəsi yaradıb, Böyük Britaniyanın Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson ölkəmizə səfər edib. Azərbaycan Avropa İttifaqının üzvü olan 9 dövlətlə strateji tərəfdaşlıq haqqında saziş imzalayıb. Avropa İttifaqı karbohidrogen ehtiyatlarının etibarlı və sabit şəkildə nəqlinə maraqlı olduğunu bir daha vurğulayıb. Eyni zamanda, Türkiyə, Rusiya və Ukrayna prezidentləri tərəfindən də dövlətimizin başçısı ilə telefonla əlaqə saxlanılaraq, müvafiq müzakirələr aparılıb. Bütün bunlar Azərbaycanın uğurlu balanslı xarici siyasəti, region və eləcə də dünya dövlətləri ilə bərabərhüquqlu və qarşılıqlı maraqlara söykənən əməkdaşlıq münasibətlərini daha da möhkəmləndirməyi şərtləndirib.

Azərbaycanın iştirakı ilə gerçəkləşdirilən beynəlxalq layihələrin icrasında Amerika Birləşmiş Ştatların da fəal rolu diqqət çəkir. Yeri gəlmişkən, ikitərəfli müstəvidə olduğu kimi, çoxtərəfli əsasda da vacib məsələlərin həlli istiqamətində iki dövlət arasında birgə fəaliyyət təqdirəlayiqdir. Bu baxımdan, enerji təhlükəsizliyi, beynəlxalq təhlükəsizlik, terrorizmə qarşı mübarizə tərəfdaşlığı səciyyələndirən aparıcı sahələr sırasındadır.

Xatırladaq ki, bu fikirlər bir neçə gün bundan əvvəl Azərbaycan Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının Prezidenti Co Baydenə ünvanladığı məktubda da yer alıb. Novruz bayramı münasibətilə Co Baydenin təbrik məktubuna və xoş sözlərinə görə təşəkkürünü bildirən dövlətimizin başçısı deyib: "Ötən otuz ildə ölkələrimiz arasında uğurlu ikitərəfli münasibətlər formalaşmışdır. Bu dövr ərzində çoxşaxəli səmərəli fəaliyyətimiz qarşılıqlı investisiya yatırımı, ölkənizi təmsil edən yüzlərlə şirkətin Azərbaycanın iqtisadi həyatında fəal iştirakı ilə müşayiət olunmuşdur.

Azərbaycan ilə Birləşmiş Ştatların ikitərəfli müstəvidə olduğu kimi, çoxtərəfli əsasda da vacib məsələlərin həlli istiqamətində birgə fəaliyyəti təqdirəlayiqdir. Bu baxımdan, enerji təhlükəsizliyi, beynəlxalq təhlükəsizlik, terrorizmə qarşı mübarizə tərəfdaşlığımızı səciyyələndirən aparıcı sahələr sırasındadır. Qlobal enerji təhlükəsizliyinin təmin edilməsi üçün böyük əhəmiyyət kəsb edən Xəzər dənizinin Azərbaycan sektorunda zəngin enerji ehtiyatlarının işlənməsi və dünya bazarlarına nəqli, irimiqyaslı transmilli enerji layihələrinin reallaşması sahəsində ABŞ-ın göstərdiyi ardıcıl dəstəyi yüksək qiymətləndiririk".

Yuxarıda qeyd olunanlar Azərbaycanın hazırda dünyada güclü və nüfuzlu dövlət, ictimai-siyasi sabitliyin, davamlı inkişafın təmin edildiyi respublika kimi tanındığını deməyə əsas verir. Ölkəmizin inkişafının, nailiyyətlərinin əsasında isə dövlətimizin başçısı cənab İlham Əliyev tərəfindən uğurla, uzaqgörənliklə reallaşdırılan daxili və xarici siyasət kursu dayanır. Bunun nəticəsidir ki, xalqımız dövlətimizin başçısının həyata keçirdiyi siyasəti birmənalı şəkildə dəstəkləyir, bu siyasətə alternativ görmür, əldə olunan uğurları yüksək qiymətləndirir.

**Vaqif BAYRAMOV, "Xalq qəzeti"**